***Aprelin 13-də Azərbaycan Prezidenti İlham Əliyevin ADA Universitetində keçirilən "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı beynəlxalq konfransda çıxışı istər ölkəmizdə, istərsə də beynəlxalq aləmdə maraqla qarşılanıb. Azərbaycan lideri həm respublikamızda, həm də ümumiyyətlə, regionda gedən prosesləri təhlil edib, ayrı-ayrı ölkələrdən gəlmiş diplomatların, siyasi icmalçıların, politoloqların bu barədəki suallarını ətraflı cavablandırıb. Ən əsası isə dövlət başçısı regionda müharibədən sonrakı vəziyyətin çox həssas olduğunu, postmünaqişə dövründə inkişafla bağlı çoxsaylı suallar qaldığını və bu konfransın mövzusunun da məhz münaqişədən sonra inkişaf və əməkdaşlığa həsr olunduğunu bildirib.***



# Prezident İlham Əliyev təkcə ölkəsinin deyil, bütün regionun taleyini, inkişafını düşünən böyük siyasi liderdir

***Bu barədə danışan tarix elmləri doktoru, professor Nizami Süleymanov dedi:***

– Prezident İlham Əliyev qonaqların diqqətinə çatdırıb ki, torpaqlarımız 30 ilə yaxın Ermənistanın işğalı altında qalıb. Azərbaycan xalqı ailə üzvlərini itirmiş, doğma yurdlarında yaşamaqla bağlı fundamental hüquqlardan məhrum edilmiş insanların taleyini bir kənara qoya, Ermənistan ordusu tərəfindən törədilmiş vəhşilikləri və Ermənistanın, eləcə də qondarma "Dağlıq Qarabağ rejimi"nin rəhbərliyi tərəfindən törədilmiş Xocalı soyqırımını, günahsız qurbanların xatirəsini unuda bilməz. Bizim şəhər və kəndlərimiz ermənilər tərəfindən darmadağın edilib. Onlar bunu bilərəkdən, Azərbaycan mədəniyyətinin izini itirmək, bu torpaqları bizim yaddaşımızdan silmək və həmin ərazilərin mənşəyini dəyişdirmək məqsədilə ediblər. Bu yaddaş qəlblərimizdə daim yaşayacaq.

Prezident müzakirələr zamanı çoxsaylı suallara cavab verib. Mənim diqqətimi Gürcüstanın Strateji Tədqiqatlar Mərkəzinin böyük elmi işçisi, ictimai yayımçı George Gvimradzenin regional əməkdaşlıqla, o cümlədən ölkəsinin 3+3 formatında əməkdaşlığa qoşulmaqla bağlı narahatlıqları cəlb etdi. O, bunu Gürcüstanın bir tərəfdən Rusiya ilə çox mürəkkəb münasibətlərinin olması, digər tərəfdən isə Qərbə inteqrasiya etmək arzuları ilə əsaslandırdı.

Prezident İlham Əliyev cavabında bildirdi ki, bu məsələni Gürcüstanın Baş naziri ilə müzakirə etməlidir, lakin o, koronavirusa yoluxduğundan hələ məsələ açıq qalır. Amma məsələ Türkiyə və Rusiya prezidentləri Rəcəb Tayyib Ərdoğan və Vladimir Putinlə müzakirə edilib. Azərbaycan, Rusiya, Türkiyə və İran arasında da çox yüksək səviyyədə müzakirələr olub.Türkiyə, Rusiya, İran regional əməkdaşlıqla bağlı eyni yanaşmanı bölüşür. İndi əsas diqqət nəqliyyat sahəsinə yönəlib. Çünki bu vəziyyətdən hamı udur. Ermənistan da səssizcə qoşulub, lakin açıqlamalarda qoşulmadıqlarını deyirlər. Onlar, ilk növbədə, bu xəstəliyi, azərbaycanofobiya və türkofobiyanı müalicə etməlidirlər.

Prezident İlham Əliyev layihənin Gürcüstan üçün də faydalı olacağını əsaslandırdı. Onun sözlərinə görə, əgər bu layihə baş tutsa, Gürcüstan Ermənistanın dəmir yolu ilə Rusiyaya, İrana və potensial olaraq Türkiyəyə çıxış əldə edəcək: "Bu, əlbəttə ki, ölkənin inkişafı üçün əlavə imkanlar yaradacaq. Azərbaycan Zəngəzur dəhlizi vasitəsilə öz dəmir yolunu Naxçıvan və Türkiyə ilə birləşdirəcək. Buna baxmayaraq, Türkiyə ilə bizim artıq Gürcüstan ərazisindən bağlantımız var – Bakı–Tbilisi–Qars. Rusiyanın Azərbaycan, Ermənistan ərazilərindən Türkiyə ilə əlavə bağlantısı olacaq. İranın da Ermənistanla bağlantısı olacaq. Bu, İrandan Rusiyaya Cənub–Şimal nəqliyyat dəhlizinin də bir hissəsi ola bilər... Gürcüstanın ehtiyat etməsi ilə bağlı eşitmişəm, mən bu haqda heç nə söyləyə bilmərəm. Mən Baş nazirlə danışmalıyam, onun mövqeyini dinləməliyəm. Lakin bizim üçün Gürcüstan təkcə strateji tərəfdaş deyil, həm də qardaş və çox yaxın ölkədir. Bu gün Gürcüstan və Azərbaycan Avropanın enerji təhlükəsizliyi üçün çox önəmli rol oynayır. Beləliklə, hesab edirəm ki, əməkdaşlığın müvafiq formatını tapa bilərik, bizim niyyətimiz belədir".

Beləliklə, biz görürük ki, Azərbaycan lideri təkcə Qarabağ münaqişəsinin həll olunması ilə kifayətlənmir, həm dost ölkələri dağıdılmış rayonların bərpasına cəlb etmək, həm də regionun altı ölkəsi arasında 3+3 formatında yeni iqtisadi əməkdaşlıq modeli yaratmaq istəyir. Çalışır ki, bu ölkələr yeni layihədən faydalansın. Bu isə Prezident İlham Əliyevin təkcə ölkəsinin deyil, bütün regionun taleyini, inkişafını düşünən böyük siyasi xadim olduğunu göstərir.

***Söhbəti yazdı:***
***Paşa ƏMİRCANOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2021.- 16 aprel.- S.5.